**Emil AĞAYEV**
*ADMİU, IV kurs sənətşünas*

# AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNİN CANLI ƏFSANƏSİ – ALTAY HACIYEV

Bütün zamanlarda incəsənət hər bir ölkənin tanıdılmasına xidmət etmişdir. Tarixə üz tutan, onu səhifələyərək vərəqləyən, bu mövzunu tam reallığı ilə bədii-obrazlı surətdə canlandıran, Azərbaycanımızı dünyaya tanıdıb sevdirən sənətkarlar arasında xalq rəssamı Altay Hacıyevin adını xüsusi hörmət, ehtiram, qürur və fəxrlə qeyd edə bilərik. Onun əsərləri insanı düşündürür, qəlbləri ovsunlayır, sivilzasiyaları birləşdirir.

Xalq rəssamı, müasir kitab qrafikasının formalaşması, tərəqqisi naminə çalışan rəssamlardan biri Əmir Hacıyevin oğlu Altay hələ yeniyetmə çağlarından rəssamlığa meyl göstərmiş, bu çox çətin və məsuliyyətli sahənin incəliklərini mənimsədikcə, əsərdən-əsərə püxtələşdikcə Azərbaycan təsviri sənətində fərdi üslubu, dəst-xətti ilə seçilən sənətkara çevrilmişdir. Rəssam ən aktual mövzular işləyən zaman müasir təsviri sənətin tələblərinə riayət etməklə yanaşı, zəngin miniatür sənətindən bəhrələnmiş, ona istinad etmişdir. Altay Hacıyevin əsərlərinin ana xəttini isə şanlı keçmişimiz, tarixi şəxsiyyətlərimiz və zəngin mənəviyyat xəzinəmizin tərənnümü təşkil edir.

Sənətkarın yaradıcılığında keçmişimizdə və bu günümüzdə, həm siyasi, həm də mədəniyyət tariximizdə rol oynayan qadın obrazları mühüm yer tutur. Belə əsərlərdən birində Azərbaycanın birinci xanımı, Mehriban Əliyeva obrazı təsvir olunmuşdur. Mehriban xanımın YUNESCO-da çıxışını təsvir edən rəssam onu tariximizdə tutduğu möhtəşəm mövqeyini bir daha vurğulayır. Sənətkar kətan üzərində ölkənin həm mədəni, həm də siyasi həyatında mühüm yer tutan monumental obraz yaratmışdır.

"Azərbaycan.Doğma tərənələr" adlı qrafik silsiləsinə daxil olan "Aşıqlar", "Bahar", "Payız" və "Ceyranlar" lövhələri obrazın bədii həlli, rəmzi məna daşıyan təsvir motivləri ilə diqqəti cəlb edir. Silsiləyə daxil olan "Aşıqlar" qrafika nümunəsində Bakının memarlıq nümunələri qarşısında çıxış edən aşıq obrazlarını görə bilərik. Rəssam burada mimika, dinamikadan ustalıqla istifadə etmişdir. Aşıqların oxuduğu nəğmələr isə vətənin gözəlliyinə həsr olunmuşdur.

"Bahar" adlı kompozisiyada milli geyimli ucaboy Azərbaycan gözəlinin əlindəki bayram xonçası və təravətli yaz fəsli təsvir olunmuşdur. Baharın uçuşan elçiləri-qaranquşlar, kəpənəklər, xalıya bənzər çiçəklər tamaşaçının diqqətini cəlb edir. "Ceyranlar" əsərində isə təbiətimizin gözəllikləri əks olunmuşdur. "Payız" adlı qrafika nümunəsində rəssam sanki payız küləyinin gətirdiyi təravəti, xısın-xısın pıçıldaşan yarpaqlar çox sadə və aydın cizgilərlə vəsf olunur. Burada təbiəti seyr edən qadın obrazı

diqqəti cəlb edir. Altay Hacıyev yaratdığı bu silsilədə ağ-qara rənglərlə Azərbaycanın hər fəsildə gözəl olmasını bir daha qeyd etmişdir.

"Qubalı Fətəli xan.Birlik arzusu ilə" adlı kompozisiyasında tarixi faktlardan istifadə edən rəssam bu əsəri ilə Fətəli xanın simasında daima xanlıqları birləşdirmək, xarici düşmənlərə qarşı mübarizə aparmaq, ölkəni vahid halda birləşdirmək istəyən bir obraz yaratmışdır. Arxa fonda döyüşə hazırlaşan atlılar, ön tərəfdə isə öz geyimləri ilə seçilən obrazlar əks olunmuşdur.

Rəssam "Arazın iki sahili" adlı nümunəsində kətan üzərində ağ xətt çəkərək, vətənin iki yerə bölünməsini ürək ağrısıyla təsvir etmişdir. İkiyə bölünmüş Arazın bir hissəsində Bakı - onun memarlıq nümunələri, xalq şairi Bəxtiyar Vahabzadə, digər hissəsində isə Təbriz və onun məşhur şairi Şəhriyarın obrazı əks olunmuşdur.

Altay Hacıyevin yaradıcılığında Şuşaya həsr etdiyi mənzərələri də mühüm yer tutur hansı ki, kompozisiyalarda rənglər vasitəsilə Qarabağın beşiyi sayılan diyarın təbiəti, dağları, küçələri və məscidi təsvir olunmuşdur. Sənətkar bu kompozisiyalarında ölkəmizin tarixən haqsızlıqlara qalmasını öz firçası vasitəsilə tamaşaçıya çatdırır.

Altay Hacıyev Qarabağın gözəl xanımı, xan qızı Natəvana həsr etdiyi 60-dan çox rəngkarlıq və qrafik əsərlərində söz xiridarının müxtəlif ovqatlı, bir-birinə bənzəməyən onlarla obrazına rast gəlmək mümkündür. Bunun üçün rəssam Şuşanın fusünkar təbiəti ilə yanaşı, şairənin müasirlərinin obrazlarından da geniş istifadə etmişdir. "Məclisi-üns", "Qarabağ şairlər və musiqiçilər vətənidir", "Natəvan və Aleksandr Düma" əsərləri bu qəbildəndir. Rəssamın yaratdığı "Mir Möhsün Nəvvab" və "Qasım Bəy Zakir" əsərləri onun "Natəvan-Şuşa" adlı sərgisinə daxil edilməsi də XIX əsr Şuşa mədəni mühitini miqyaslı göstərmək istəyindən irəli gəlmişdir.

Milli adət ənənələrimizi əks etdirdiyi əsərləri arasında "Qız evində toy" adlı tablosu da xüsusi yer tutur. Kompozisiyada sandıq üstündə oturan gənc qız və onun ətrafındakı, əllərində xonça, güzgü tutan xanımlar tamaşaçının diqqətini cəlb edir. "Oğlan evində toy" adlı kompozisiyasında isə sanki çal-çağırlı toy gözümüzün önündə canlanır, arxa fonda ifa edən musiqiçilər, ön tərəfdə isə gənc bəy, qırmızı lenti olan qoç və toyu maraqla izləyən balaca oğlan təsvir olmuşdur. Rəssam hər iki rəngkarlıq nümunəsində işıq-kölgədən, məkan həllindən, isti rənglərdən məharətlə istifadə etmişdir.

Altay Hacıyevin yaradıcılığında Bakıya həsr etdiyi kompozisiyalarıda mühüm yer tutur. Onun "Bakılı qızlar" adlı rəngkarlıq nümunəsində Bakının simvolu olan Qız qalası və gözəl qızların təsviri yer almışdır. Xanımların üzlərindəki sadəlik, utancaqlıq əsəri daha da gözəlləşdirir. "Sevdiyim Köhnə Bakı" adlı kompozisiyasında ümumilikdə paytaxtımızın qədimliyi, onun memarlıq abidələrinin təsviri bu şəhərin həqiqətən "əfsanələr paytaxtı" olduğunu bir daha təsdiq edir. "Bakı küləyi" adlı əsərində küləklər şəhəri olan paytaxtımız, Xəzər dənizi və neft daşlarının üstündə uçan qağayılar təsvir

olunmuşdur. Sənətkarın "Müasir Bakı" adlı mənzərəsində isə artıq öz yerini dünya şəhərləri arasında tutan, gecələri işıqlı olan qüdrətli, müstəqil Azərbaycanın paytaxtı təsvir olunmuşdur. Müasir Bakının simvoluna çevrilən alov qüllələrinin saçdığı işıq isə Xəzər dənizinin üzərini bəzəyir vəölkənin gələcəyinin parlaq olduğunu Altay Hacıyev bu kompozisiyasıyla tamaşaçılara çatdırır. Sənətkarın hər bir əsərini tarixə açılan pəncərə adlandırmaq olar. Azərbaycan yaşadıqca Altay Hacıyevdə qəlblərdə yaşayacaq!

**Ədəbiyyat:**


1. Əliyev Z. "Müjdə soraqlı əsərlərin müəllifi". "Qobustan" jurnalı, 2003 N 2.
2. Əliyev Z. "Milli ənənələrə bağlı olan sənətkar" Altay Hacıyev-80 (İzomaterial) 2011
3. Qasımova E. "Gələcəyə ünvanlanmış sənətimiz" Altay Hacıyev-80 (İzomaterial) 2011
4. Hacızadə E. "Rəng,kompozisiya və plastik dəyərlər-Altay Hacıyev 80"."Mədəni maarif" jurnalı, 2011 N 2.
5. Quliyev Ə. "Sənətin zirvəsində-xalq rəssamı Altay Hacıyev". "525-ci qəzet", 2016-cı il 9 aprel
6. Behbudova İ. "Altay Hacıyevin 80 illik həyat və yaradıcılığı" Təsviri və dekorativ tətbiqi sənət məsələləri" jurnalı 2012 N 1(9)



**Эмиль Агаев**

**Резюме**

**Ключевые слова:** композиция, решение цвета, образ, сюжетная линия, графика

В статье нашло отражение творчество народного художника Алтая Гаджиева, сыгравшего особую роль в формировании современной книжной графики, художественные образы в его творчестве, информация об описании и анализе его произведений написанных в портретном, историческом и пейзажном жанрах.



**Emil Aghayev**

**Summary**

**Key words:** composition, color resolution, image, plot line, graphics.

The article contains of information about one creativity artists, Altai Hajiyev's whose main role was in the formation of modern book graphics, the analysis of his works in the portrait, historical and landscape genres.